Ən çox oxunan qəzet

№ 34 (4729), 2018-ci il

Qiymәti 30 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qəzet 1996-cı il noyabrın 1-dən çıxır

www.sherg.az

21 fevral
(çərşənbə)

## 100 müraciətin əksəriyyətinə müsbət rəy verilib

Əfv komissiyasının iclası yekunlaşdı



**Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının bugünkü iclası yekunlaşıb.**

Komissiyanın üzvü Rəşad Məcidin Lent.az-a verdiyi məlumata görə, iclasda əfvlə bağlı 100-dən çox müraciətə baxılıb, onların əksəriyyətinə müsbət rəy verilib.

(Səh.8)

## Göygöldə evdən qaçan gəlin tapıldı

Qadın ifadəsində bildirib ki, qayınana və qayınatası ilə yola getmədiyi üçün bu addımı atıb



**Göygöl rayonunda itkin düşən gəlinin 11 gün ərzində harada yaşadığı məlum olub.** 11 gün əvvəl qayınatası ilə birgə Göygöl şəhərinə gələn və qəflətən orada taksiyə minərək Gəncə şəhəri istiqamətinə gedən gəlin Gülüstan qəsəbəsində düşərək rəfiqəsi ilə görüşüb.

(Səh.9)



## 1500 manat müəyyən edilib

Milli Qəhrəmanlara verilən Prezident təqaüdü 200 manat artırılıb

Azərbaycan prezidenti İlham Əliyev Milli Qəhrəman adı verilmiş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 iyul tarixli 258 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə fərman imzalayıb.

(Səh.3)

## "Erməni və azərbaycanlı icmaları arasında dialoq qurulmalıdır"

Nazir deyib ki, Ermənistan hər vəchlə bu kimi təşəbbüslərə qarşı çıxıb



Nazir Elmar Məmmədyarov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

(Səh.2)

# "Biz unutmayacağıq"



## Ərdoğan: "Dünyada vəhşi qətliam arayan varsa, bu, Xocalıdır"

**"Xocalı faciəsi zamanı şəhid olan azərbaycanlı qardaşlarımızı rəhmətlə anırıq. Dünyada vəhşi qətliam arayan varsa, bu, Xocalıdır. İnsanlıq tarixinin ən böyük zülmlərindən biri 26 il əvvəl Xocalıda yaşanıb".** Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hakim Ədalət və İnkişaf Partiyasının parlament qrupunun toplantısında çıxış edərkən deyib.

(Səh.5)

Günün içindən ● Günün içindən | Günün içindən ● Günün içindən



## "Mədəniyyət 20 manatla ölçülmür"

Afaq Bəşirqızı: "Biz bu sənətə pul qazanmaq naminə gəlmədik, sənətin fədailəri olduq"

**Bəzi müsahiblər təkcə müsahib kimi yaddaşımızda qalmır.**

Eyni zamanda canlı karifeylərlə həmsöhbət olmaq bir şans, bir qazanc hesab edilə bilər.

(Səh.7)

# "Evlər başsız, kontrol yox"



Qılınc Qurbanla İsfəndiyar kişinin söhbəti yadımıza düşdü

(Səh.8)